

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 iyun 2024-cü il №41 (2852) https://mod.gov.az Qiymәti 30 qəpik

*Reportaj*

## Qəhrəman artilleriyaçılarımızın adını yaşatmaq ümdə vəzifəmizdir



*Azərbaycan Ordusunun şəxsi heyətinin döyüşaparma və özünümüdafiə qabiliyyətinin yüksəldilməsi məqsədilə kompleks tədbirlər bu gün də uğurla davam etdirilir. Günün müxtəlif saatlarında keçirilən ixtisas, taktiki, atəş hazırlığı məşğələləri, o cümlədən təşkil olunan müxtəlif miqyaslı təlimlər hərbi qulluqçularımızın döyüş hazırlığının yüksəldilməsi üçün böyük əhəmiyyət kəsb edir.*

"N" hərbi hissəsində şəxsi heyətin çöl məşğələsində iştirak etdik. Zabit Emil Məhərlinin rəhbərliyi altında keçirilən məşğələnin mövzusu, yerinə yetiriləcək tapşırıqlar, qarşıda duran məqsədlər, təhlükəsizlik qaydaları ilə bağlı məlumatlar şəxsi heyətin diqqətinə çatdırıldı. Verilən komandalar ilə batareyanın hərbi qulluqçuları vəzifələrinə uyğun olaraq artilleriya qurğusunun ətrafında öz yerlərini tutdular. Dərs rəhbərinin komandaları ilə tapşırıqların yüksək dəqiqliklə icra olunması bölmədəki döyüş hazırlığının yüksək olmasının göstəricisi idi. Gənc artilleriyaçılarımızın hərəkətləri zəncirvarilik prinsipi ilə yerinə yetirilirdi ki, bu da batareyadakı hər heyət üzvünün öz üzərinə düşən vəzifəsinə olan sevgisindən və bu sevgidən yaranan yüksək təcrübənin bariz nümunəsi idi. Bir sözlə, dərs prosesini izlədiyimiz müddət ərzində gəldiyim qənaət ondan ibarət oldu ki, gənc və təcrübəli komandirlərimizin sayəsində bölmədəki döyüş əhval-ruhiyyəsi yüksək səviyyədədir və gənc artilleriyaçılarımız qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyə qadirdirlər. Çünki ixtisaslarının incəliklərinə bələddirlər və vəzifələrinin tələblərinə uyğun xidmətlərini tələblər çərçivəsində qururlar. Dərs başa çatdıqdan sonra gənc artilleriyaçılarımızla tanış olub, onların fikirlərini qələmə aldım.

Artilleriyaçı zabit Emil Məhərli 2011-2014-cü illərdə C.Naxçıvanski adına Hərbi Liseydə, 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alıb və ordu sıralarına zabit kimi daxil olub. Baş leytenant Emil Məhərli gənc olmasına baxmayaraq, 44 günlük haqq savaşımızın, Qisas əməliyyatının və tam zəfərimizin möhürü olan antiterror tədbirlərinin iştirakçısı olub. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub. Bu gün də üzərinə düşən vəzifəni qürurla yerinə yetirən zabit batareyanın gənc artilleriyaçılarının bilik və bacarıqlarının artırılması istiqamətində böyük səylə çalışır. "Təsdiq olunmuş plana əsasən, keçirilən məşq və dərslər sayəsində divizionun şəxsi heyəti artilleriya ixtisasını praktiki və nəzəri cəhətdən öyrənir. Təşkil olunan dərslərdə yetişən şəxsi heyət təlimlərdə də sərgilədiyi mübarizliyi ilə seçilir və sadalananlar da döyüş hazırlığımızın yüksək olduğunu bir daha təsdiqləyir. Onların hər biri artilleriya generallarımız Səməd bəy Mehmandarov və Əlağa Şıxlinskinin layiqli davamçısı olmaq üçün təcrübələrini artırır və ixtisasının incəliklərini dövrün tələblərinə uyğun olaraq dərindən mənimsəmək üçün böyük əzmlə çalışır. Şəxsi heyətin hər biri öz vəzifəsinə uyğun olaraq fəaliyyətini təşkil edir". Zabit fikrini tamamladıqdan sonra batareyanın şəxsi heyəti ilə tanış olduq.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Manaf Məmmədov qeyd etdi ki, top heyətinin üzvləri arasında möhkəm və sarsılmaz kollektivlik mövcuddur. "Dərs və məşğələlər Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş hazırlıq planına uyğun olaraq həyata keçirilir. Şəxsi heyət əvvəlcə silahla tanış olur, onun taktiki-texniki xüsusiyyətlərini qavrayır, hər bir heyət üzvünün üzərinə düşən vəzifəni mənimsəyir, batareya səviyyəsindən divizion səviyyəsinə qədər qurulan fəaliyyətləri dərindən öyrənir. Müasir döyüşdə artilleriyanın nə qədər böyük əhəmiyyətə malik olması hər kəsə bəllidir. Adları tarixin qızıl səhifələrinə yazılmış təcrübəli artilleriyaçılarımızın adını yaşatmaq və bu ixtisası gənclərimizə sevdirmək üçün komandirlərimizlə birlikdə böyük səylə çalışırıq. Şəxsi heyət də öz peşə vərdişlərini artırmaq üçün əlindən gələni əsirgəmir. Hər bir heyət üzvü öz vəzifəsinin incəliklərinə bələddir və qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirməyi bacarır. Bir sözlə, dünya şöhrətli artilleriyaçılarımızın bugünkü davamçıları da Vətəninə, xalqına şərəflə xidmət edir, vəzifəsinə uyğun olaraq öz peşəkarlıqlarını durmadan artırırlar".

**(Ardı 3-cü səhifədə)**



"Onlar xalqımızın tarixində həmişə yaşayacaqlar"

**5-ci səhifədə**



Heydər Əliyev - böyük tarixi şəxsiyyət

**6-cı səhifədə**



Doğru yol

**7-ci səhifədə**



26 İyun - Silahlı Qüvvələr Gününə həsr olunmuş şahmat və dama turnirləri keçirildi

**8-ci səhifədə**

## Azərbaycan müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülərə və Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Güraka başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Kayseri şəhərində qardaş Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus SF-260D tipli hərbi təlim təyyarəsinin qəzaya uğraması nəticəsində pilotların şəhid olması xəbəri məni çox kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Faciəvi qəza zamanı bütün həlak olanların yaxınlarının və əzizlərinin kədərinə şərik olduğumuzu bildirir, onlara Allahdan səbir diləyirik.

Ruhları şad, xatirələri əziz olsun.

Allah rəhmət eləsin".

## Tacikistan nümayəndə heyəti Azərbaycan HHQ-ni ziyarət edib



Azərbaycan və Tacikistan respublikaları arasında 2024-cü il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, iki ölkənin Hərbi Hava Qüvvələrinin (HHQ) nümayəndələri arasında görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə qonaqlara HHQ-nin tarixi və fəaliyyəti haqqında geniş brifinq təqdim olunub, 44 günlük Vətən müharibəsində HHQ-nin rolu haqqında məlumat verilib, pilotsuz uçuş aparatlarından istifadəyə dair fikir mübadiləsi aparılıb, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Plana uyğun olaraq, Tacikistan nümayəndə heyəti HHQ-nin hərbi hissələrini və hərbi təhsil müəssisələrini ziyarət edib.

Tacikistanlı qonaqlara Azərbaycan Ordusunun arsenalında yer alan bəzi pilotsuz uçuş aparatları əyani olaraq göstərilib, qurğuların taktiki-texniki xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

## Hərbi attaşelərin "N" hərbi hissəsinə tanışlıq səfəri təşkil olundu





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin "N" hərbi hissəsinə tanışlıq səfəri təşkil olundu.

Səfər zamanı hərbi nümayəndələr əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan büstü önünə gül dəstələri qoyaraq, Ulu Öndərin xatirəsinə hörmət və ehtiram nümayiş etdirdilər.

Sonra 22 dövləti təmsil edən hərbi attaşelik aparatlarının 26 nümayəndəsinə hərbi hissənin yaranması və döyüş yolu haqqında brifinq təqdim olundu.

Bildirildi ki, hərbi hissə yarandığı gündən qarşıya qoyulmuş tapşırıqların öhdəsindən uğurla gəlib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 2 sentyabr 1998-ci ildə, 25 may 2000-ci ildə və 12 sentyabr 2002-ci ildə hərbi hissəni ziyarət edərək, hərbi qulluqçularımızın xidmətini yüksək qiymətləndirib. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 16 iyun 2004-cü ildə hərbi hissəyə döyüş bayrağı təqdim edib.

Qeyd olundu ki, hərbi hissənin şəxsi heyətindən 16 nəfər Azərbaycanın Milli Qəhrəmanı, 33 nəfər "Azərbaycan Bayrağı" ordeni, 37 nəfər isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Brifinqdən sonra qonaqlar şəxsi heyətə verilən yeni növ hərbi geyim forması, gündəlik qida təminatı, məişət şəraiti və hərbi hissənin silahlanmasında olan bəzi döyüş texnikası ilə tanış oldular.

Səfər çərçivəsində qonaqlar Nizami Gəncəvi məqbərəsini və muzeyini, Fikrət Əmirov adına Gəncə Dövlət Flarmoniyasını, Şah Abbas məscidini, Göygöl Milli parkını, həmçinin 2020-ci ilin oktyabrında Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə müxtəlif raketlərlə hücumu zamanı dağıdılmış yaşayış yerlərini ziyarət etdilər.

Hərbi attaşelər səfərin yüksək səviyyədə təşkilinə, göstərilən diqqət və qonaqpərvərliyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

**Baş leytenant Oruc MUSTAFAYEV "Azərbaycan Ordusu"**



## ƏÜO-da növbəti komanda-qərargah təlimi keçirilib







Komanda-qərargah təlimində bölmələr təlim rayonlarına çıxarılarkən onların manevr imkanları, komandirlərin və qərargahların yaranmış mürəkkəb əməliyyat şəraitində idarəetmə bacarıqları və qərargahların bölmələrin hərtərəfli təminatında fəaliyyətləri yoxlanılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, açılmış səhra və stasionar döyüşü idarəetmə məntəqələrində yuxarı komandanlıqdan alınmış tapşırığa əsasən, əməliyyatların planlanmasına başlanılaraq optimal qərarın qəbulu üçün hərbi qərar qəbuletmə prosesinə uyğun fəaliyyətlər icra olunub.

Təlimin ikinci mərhələsi ənənəvi olaraq, qərargahlar tərəfindən qəbul edilən qərarların, komandirlərin bölmələri idarəetmə bacarıqlarının və atəş-dəstək vasitələrinin effektiv istifadəsini görmək məqsədilə Simulyasiya Mərkəzində kompüterlər üzərində oynanılması ilə keçirilib.

Komanda-qərargah təliminə cəlb olunan birləşmə, hissə və bölmələrin tapşırıqları dəqiqləşdirilib, təlim döyüş fəaliyyətlərinin gedişində xüsusi təyinatlı, tank, mexanikləşdirilmiş, rabitə və artilleriya bölmələrinin ümumqoşun birləşmələri ilə qarşılıqlı fəaliyyət üzrə suallarin işlənilməsi yoxlanılıb.



Təlimə cəlb olunan Hava Hücumundan Müdafiə bölmələrinin döyüş növbətçiliyində olan Kəşfiyyat və Hədəfgöstərmə stansiyaları ilə hava məkanının fasiləsiz kəşfiyyatı aparılıb, məlumatlar təhlil olunaraq, komanda və idarəetmə məntəqələrinə, həmçinin qarşılıqlı əlaqədə olan bölmələrə ötürülüb.

Döyüş heyətləri müxtəlif hündürlük diapazonlarında intensiv aktiv və passiv manea şəraitində fəaliyyət göstərən şərti hava düşmənini məhv edərək, hava məkanının təhlükəsizliyini təmin edib.

Təlimin gedişində Raket və Artilleriya birləşmə, hissə və bölmələri pilotsuz uçuş aparatlarından və qoşun kəşfiyyatı vasitələrinin məlumatlarından istifadə etməklə, şərti düşməni aşkar edərək sərrast və dəqiq atışlarla məhv ediblər.

Xüsusi təyinatlılar şərti düşmənin dərinliyində, çətin keçidli dağ və meşəlik ərazilərdə müxtəlif kəşfiyyat tapşırıqlarını yerinə yetirib. Artilleriya bölmələrinin atəşindən yararlanan xüsusi təyinatlılar şərti düşmənin vacib obyektlərini basqın fəaliyyətləri icra edərək ələ keçiriblər.

Komandir heyətinin çevik qərar qəbuletmə bacarıqlarının, qərargahların qarşılıqlı fəaliyyətinin, eləcə də onların mürəkkəb şəraitlərdə döyüş tapşırıqlarını idarəetmə qabiliyyətlərinin daha da təkmilləşdirilməsi məqsədilə keçirilən təlimin yekununda qarşıya qoyulmuş məqsədlərə nail olunduğu vurğulanıb.



# “Qafqaz Qartalı-2024” birgə təliminin açılış mərasimi keçirildi





Təsdiq olunan plana əsasən, Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə keçirilən "Qafqaz Qartalı-2024" birgə təliminin açılış mərasimi keçirildi.

Əvvəlcə Azərbaycan, Türkiyə və Gürcüstan respublikalarının müdafiəsi və suverenliyinin qorunması uğrunda xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hər üç ölkənin Dövlət Himnləri səsləndirilərək dövlət bayraqları qaldırıldı.



Açılış mərasimində təlim iştirakçılarını salamlayan general-mayor Akif Pirverdiyev çıxış edərək, Müdafiə Nazirliyi rəhbərliyinin təbrikini şəxsi heyətə çatdırdı, birgə təlimdə iştirak edən hər üç ölkənin nümayəndələrinə uğurlar arzuladı.

Mərasimin rəsmi hissəsi başa çatdıqdan sonra Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin layihəsinə əsasən, təlim iştirakçıları üçün "Zirvədən-Zirvəyə, Qafqaz Qartalı!" adlı konsert proqramı təqdim olundu.

Bədii proqramda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin hərbi orkestri, Bakı Xoreoqrafiya Akademiyasının və "Səma" rəqs ansamblların üzvləri yer aldılar.

Sonda hər üç ölkənin xüsusi təyinatlıları təlim mərkəzinin yeməkxanasında çay süfrəsi ətrafında fikir mübadiləsi apardılar.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**



# “Komando başlanğıc kursu”nun buraxılış mərasimi keçirilib

Cari ilin hazırlıq planına uyğun olaraq, "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Mərasimdə çıxış edənlər məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbriklərini çatdırıb, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar.

Azərbaycan Ordusunda hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və döyüş qabiliyyətinin artırılmasında bu cür kursların əhəmiyyəti xüsusi vurğulanıb.

Buraxılış mərasimində kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunduqdan sonra şəxsi heyət təntənəli marşla tribuna önündən keçib.




(Əvvəli 1-ci səhifədə)

# Qəhrəman artilleriyaçılarımızın adını yaşatmaq ümdə vəzifəmizdir

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Sərxan Nəsibov batareyanın gündəlik fəaliyyəti haqqında bizimlə həmsöhbət oldu. "Təsdiq olunmuş günün nizam qaydalarına uyğun olaraq, bölməmiz, sinif otağında keçirilən dərslərdə nəzəri biliklərini, çöl dərslərində isə praktiki vərdişlərini artırır. Həmçinin şəxsi heyətin fiziki hazırlığı da mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir ki, bu məsələ də nəzarətdə saxlanılır. Artilleriya ixtisası insandan yüksək biliklə yanaşı, fiziki güc və bacarıq da tələb edir. Bir sözlə, gənc artilleriyaçılarımızın formalaşması üçün bölməmizdə arzuolunan şərait yaranıb. Şəxsi heyət də öz növbəsində həm xidməti, həm də gündəlik fəaliyyətini lazımi səviyyədə yerinə yetirir. Hər biri nümunəvi xidməti ilə həm komandirlərinə, həm də valideynlərinə başucalığı gətirmək üçün əzmlə çalışır".

Sərxanla söhbətimiz yekunlaşdıqdan sonra gənc artilleriyaçılarımızın düşüncələrini qələmə aldım.



Əsgər Abbasəli İbişov çəldliyi, çevikliyi, yüksək bilik bacarığı ilə seçilən heyət nəfərlərindən biridir. "Güclü ordunun sıralarında Vətənimə, xalqıma sədaqətlə xidmət etməkdən qürur duyuram. Azərbaycan əsgəri adını daşımaq hər birimiz üçün fəxrdir. Bu adı layiqincə daşımaq üçün əlimizdən gələni edirik. Qəhrəman artilleriyaçılarımızın bugünkü davamçısı olaraq, bizim üzərimizə böyük məsuliyyət düşür. Biz bu məsuliyyətin fərqindəyik və bu ixtisasın incəliklərini komandirlərimizdən öyrənir, öz nəzəri və praktiki bacarıqlarımızı dövrün tələbləri çərçivəsində qururuq", - deyə əsgər bildirdi.



Əsgər Ayxan Əliyev dedi ki, təcrübəli komandirlərinin keçdiyi dərslər sayəsində artilleriya ixtsasına sevgisi daha da artmağa başlayıb. "Artilleriya ixtisası üzrə yüksək təcrübəyə malik olan komandirlərimiz bizimlə həm şəxsi təcrübələrini bölüşür, həm də bu sahənin nəzəri və praktiki incəliklərini bizə öyrədir. Qazanılan təcrübələr sabahkı uğurumuzun təminatçısıdır".

Sonuncu müsahibim Məqami Həsənov uğurlu və layiqli xidmətin başında Vətən sevgisinin dayandığını qeyd etdi. "Vətəni qorumaq ən ali vəzifədir. Öz ixtisasımızın incəliklərini dərindən öyrənməliyik ki, Vətənimizi qoruya bilək. Bunun üçün komandirlərimizin əməyi danılmazdır. Bizi Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, İsgəndər Aznaurov və adını qeyd etmədiyim minlərlə təcrübəli artilleriyaçımızın adına layiq bir topçu olaraq yetişdirən komandirlərimiz öz təcrübələrini, bilik və bacarıqlarını bizimlə bölüşürlər. Qəhrəman artilleriyaçılarımızın adını yaşatmaq ümdə vəzifəmiz və bu müqəddəs işdə əsas dəstəkçimiz təcrübəli komandirlərimizdir".

**Kapitan**
**Fuad CƏFƏROV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində növbəti tədbir keçirildi







Yeni minillikdə ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosferin çirklənmədən mühafizə edilməsi ümumbəşəri problemə çevrilmişdir. Dünyada demoqrafik artımla yanaşı, istehlakın kəskin artması, qlobal istiləşmə, ozon qatının zədələnməsi, təbii ehtiyatların tükənməsi, qlobal istiləşmə, buzluqların əriməsi kimi narahatlıq doğuran məsələlər ətraf mühitlə bağlı düşüncə və fəaliyyətlərə də öz təsirini göstərmişdir.

Qlobal ekoloji böhran şəraitində iqtisadiyyat, cəmiyyət və ətraf mühit arasında zəruri balansın saxlanması yalnız inkişafın yeni ekoloji təhlükəsiz və iqtisadi baxımdan optimal modelinin davamlı inkişafın formalaşdırılması hesabına ola bilər. Bu kontekstdə hal-hazırda əsas prioritet davamlı inkişafın məqsədlərinin reallaşdırılması üzrə qlobal, regional və milli alətlərin əlaqələndirilməsidir.

Azərbaycan Respublikası Prezidentinin ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncamının icrası ilə əlaqədar müdafiə nazirinin tapşırığına əsasən tədbir keçirildi.

Müdafiə Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin rəhbərliyi, zabit, müəllim heyəti və kursantları, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndələri iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra "Yaşıl dünya naminə həmrəylik ili" mövzusunda çıxışlar dinlənildi, mövzuya uyğun videoçarx təqdim olundu.

Bakı Hərbi Kollecinin rəisi vəzifəsini icra edən polkovnik Elşən Paşayev çıxış edərək bildirdi ki, bu tədbirin təşkil edilməsində əsas məqsəd təbiətə sevginin təşviqi və onun bizə bəxş etdiyi nemətləri qorumaqdır. Hər bir insan dərk etməlidir ki, ətraf mühit bizim gələcək nəsillərə ötürə biləcəyimiz ən qiymətli mirasdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi Röya Əfəndiyeva isə çıxışında vurğuladı ki, belə tədbirlərin keçirilməsinə köməklik edən hər kəsə minnətdarlığımı bildirirəm. Bu cür tədbirlər kursantların ekoloji dünya görüşünü, təbiətə münasibətdə əxlaqi yanaşma mövqeyini, təbii sərvətlərin öyrənilməsi vasitəsilə idraki səriştələrin formalaşmasını, öyrənmə və tədqiqatçılıq bacarıqlarının yeni formalarının hazırlanmasını, kursantların ekoloji hərəkata, ekoloji yönümlü fəaliyyətə cəlb edilməsini, bilik axtarışının müxtəlif forma və metodlarını, praktiki bacarıqlarını, təşkilatçılıq qabiliyyətlərini stimullaşdırmağa kömək olacaqdır.

Tədbir Hərbi kollecin ərazisində ağacəkmə aksiyası ilə davam etdi.

Hərbi qulluqçuların, professor-müəllim heyətinin, kursantların iştirakı ilə təbiətin qorunmasına töhfə vermək, ətraf mühiti sağlamlaşdırmaq, yaşıllıqları artırmaq, ekoloji tarazlığın bərpasına yardım etmək, atmosferi oksigenlə zənginləşdirmək məqsədilə müxtəlif növ ağaclar əkildi, abadlıq işləri görüldü.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# “Zəfərlə taclandırılmış Müstəqillik!” adlı maarifləndirici tədbir keçirilib



Mayın 30-da Azərbaycan Hərb Tarixi Muzeyinin təşkilatçılığı ilə hərbi qulluqçular üçün "Zəfərlə taclandırılmış Müstəqillik!" adlı maarifləndirici tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Azərbaycan Hərb Tarixi Muzeyinin elmi heyəti, Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun alimləri və "AYTAM" Uşaqların Mədəni Maarifləndirilməsi İctimai Birliyinin üzvləri iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbirdə "Azərbaycan dövlətçiliyinin Azərbaycan Xalq Cümhuriyyəti səhifəsi", "Azərbaycan Xalq Cümhuriyyəti ordusu Azərbaycan dövlətçiliyinin keşiyində", "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ərəfəsində ölkədə ictimai-siyasi vəziyyət - Mart soyqırımı" və "İrəvan şəhərinin ermənilərə güzəştə gedilməsinin səbəbləri və ağır nəticələri" adlı mühazirələr oxunub.

İştirakçılara "Cümhuriyyətin 9 şəkli" adlı sənədli film nümayiş olunub.

Sonda hərbi vətənpərvərlik mövzusunda mahnılar səsləndirilib.

# Azərbaycan və Qırğızıstan arasında hərbi tibb sahəsində əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib





Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında imzalanan ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Müdafiə Nazirliyinin Tibb İdarəsində görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi vəzifəsini icra edən tibb xidməti polkovnik-leytenantı Anar İsmayılov və Qırğız Respublikası Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi tibb xidməti polkovniki Amanbai Matisakov hərbi tibb sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi apardılar.

Sonra qırğızıstanlı nümayəndə Müdafiə Nazirliyinin Baş Klinik Hospitalı, Mərkəzi Hərbi Poliklinika, Mərkəzi Stomatoloji Poliklinika, Sanitar-Epidemioloji Nəzarət Mərkəzi, Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzini ziyarət edib, burada yaradılan şəraitlə tanış olub, hərbi tibb sahəsində xidmət edən həkimlərin fəaliyyətlərini izləyib.

# Hərbi qulluqçumuz “Afrika Aslanı-2024” təlimində iştirak edib



Mərakeşin Aqadir şəhərində keçirilən "Afrika Aslanı-2024" beynəlxalq hərbi təlimlərinin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Azərbaycan Ordusunun hərbi qulluqçusu iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kompüter dəstəkli komanda-qərargah və döyüş atışlı mərhələlərdən ibarət olan təlimlərdə terror qrupları ilə mübarizə əməliyyatlarına müxtəlif tapşırıqlar icra edilib.

Qeyd edək ki, 20-ci dəfədir keçirilən təlimlərin başlıca məqsədi regional sülhü, eləcə də beynəlxalq təhlükəsizlik və sabitliyi dəstəkləməkdir.

Milli Qəhrəmanlarımız

# "Onlar xalqımızın tarixində həmişə yaşayacaqlar"




*Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə şəhidlərin anım mərasimləri müntəzəm təşkil olunur. Bu tədbirlərdə məqsəd həm də qəhrəmanların layiqli davamçılarını vətənpərvərlik ruhunda formalaşdırmaqdır.*

Ağstafa rayonunda Azərbaycanın Milli Qəhrəmanı Alıcanov Rafiq Səfər oğlunun adını daşıyan Köçvəlli kənd orta məktəbində Ağstafa təhsil sektoru ilə birgə anım mərasimi təşkil olundu. Mərasimdə Ulu Öndər Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Mərkəzin əməkdaşları Azərbaycanın Milli Qəhrəmanı şəhid Rafiq Alıcanovun mənalı həyatı, döyüş yolu haqqında ətraflı məlumat verdilər. Bildirdilər ki, Rafiq Alıcanov 11 iyul 1965-ci ildə Qazax rayonunun Kəmərli kəndində anadan olub, sonra ailə vəziyyəti ilə əlaqədar Ağstafa rayonunun Köçvəlli kəndində yaşayıb. Muğanlı kənd orta məktəbini bitirdikdən sonra sənədlərini hərbçi olmaq istəyi ilə Kaliningrad şəhərində ali hərbi məktəbə təqdim edib. İmtahanları müvəffəqiyyətlə verib, kursant adını qazanıb. Oxuduğu müddətdə nümunəvi kursant kimi tanınıb. Təhsilini başa vurduqdan sonra "leytenant" hərbi rütbəsi alıb, Ukraynada hərbi xidmətə başlayıb. Ona göstərilən etimadı həmişə doğruldub.

1988-ci ildən başlanan hadisələrə gənc zabit biganə qala bilməyib. Ermənistanın işğalçılıq siyasəti nəticəsində ölkəmizə qarşı torpaq iddiaları ilə başlanan elan olunmamış müharibə onu ciddi narahat edib. 1992-ci ildə Vətənə qayıdır və "N" hərbi hissəsində mühəndis xidməti rəisi vəzifəsinə təyin edilir. Döyüş yolu Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Kəlbəcər, Ağdam, Tərtər, Füzuli, Zəngilan, Naxçıvan bölgələrini əhatə edib. Məsuliyyətli zabit öhdəsinə düşən vəzifələri həmişə müvəffəqiyyətlə yerinə yetirir. Düşmənə qarşı böyük fədakarlıqla mübarizə aparıb. O, 1993-cü ildə Füzuli bölgəsində gedən döyüşlərdə fəal iştirak edib. Ağır döyüşlər zamanı kapitan Rafiq Alıcanov Kürdmahmudlu kəndində şəhid olub, 5 noyabr 1993-cü ildə boya-başa çatdığı Köçvəlli kənd qəbiristanlığında dəfn olunub. Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.





Təhsil aldığı Köçvəlli kənd orta məktəbinə onun adı verilib. Xatirəsini əbədiləşdirmək üçün Ağstafa şəhərinin mərkəzində büstü qoyulub, xatirə parkı salınıb. Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır.

Köçvəlli kənd orta məktəbinin təşkilatçı-müavini Göyçək Yusifova çıxışında bildirdi ki, ata-babaların əmanəti sayılan Vətən torpaqlarını igid, vətənsevər oğullar həmişə qoruyublar. "Mərd, qorxmaz övladlarımız həmişə Vətənin azadlığı, müstəqilliyi uğrunda mübarizə aparıblar. Birinci Qarabağ və Vətən müharibəsində şəhid olanların adlarının əbədiləşdirilməsinə, ailələrinə xüsusi diqqət və qayğı göstərilir. Elə bir tədbir, toplantı olmur ki, Vətənə xidməti ilə seçilən vətənpərvər oğullar haqqında danışılmasın. Kapitan Rafiq Alıcanov da qəhrəman Vətən oğlu kimi xalqımızın tarixində həmişə yaşayacaqdır".

Vətən müharibəsi iştirakçısı Yusif Əhmədov ordumuzun Vətən müharibəsində göstərdiyi rəşadətdən, yüksək vətənpərvərlik hissindən, qələbə əzmindən danışdı. Qeyd etdi ki, tariximizə yeni qəhrəmanlıq səhifələri yazan oğullar heç vaxt unudulmayacaq, Vətənə, xalqa əvəzsiz xidmətləri ilə həmişə xatırlanacaqlar.

Milli Qəhrəmanın oğlu Elvin Alıcanov Vətənin azadlığı, suverenliyi uğrunda döyüşlərdə rəşadət göstərən qəhrəmanlara göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə minnətdarlığını ifadə etdi.

Mərkəzin əməkdaşları əsgər həyatından bəhs edən videoçarx nümayiş etdirdi. Şagirdlər Milli Qəhrəmana həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim etdilər.

"Əsgərə məktub" layihəsi çərçivəsində Vətən keşiyində dayanan əsgərlərə ictimaiyyət nümayəndələri qürur dolu məktublar ünvanladılar.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# Şəhidlər qürur mənbəyimizdir

*2020-ci il sentyabrın 27-də başlayıb noyabrın 10-dək davam edən müharibə hər kəsin yaddaşında əbədi iz qoydu. 8 Noyabr Zəfər tariximiz, milli qürur günümüzdür. Azərbaycan Ordusunun tarixə səs salan və Böyük Zəfərlə başa çatan Vətən müharibəsi bir daha təsdiq etdi ki, ölkəmizin gəncləri Vətənin azadlığı naminə hər şeyə qadirdirlər.*



Həmsöhbətim İmişli rayon İcra Hakimiyyəti başçısı Aparatının Vətən müharibəsi iştirakçıları və Şəhid Ailələri ilə İşin Təşkili şöbəsinin müdiri İltizam Quliyevdir. O da Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan zabitdir. Şöbə müdiri söhbətinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəhid ailələri ilə görüşündə dediyi sözlərlə başladı: "Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq! Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. Allah sizə səbir versin. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı". Bəli, canını Vətən torpaqlarının azadlığı, bütövlüyü naminə qurban verən şəhidlər qürur mənbəyimizdir. Xalqımızın qəhrəman oğulları zaman-zaman torpaqlarımıza göz dikən yadelli işğalçılara qarşı amansızlıqla döyüşüb, onları məhv ediblər. İstər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində yüzlərlə Vətən övladı torpaqlarımızın müdafiəsi uğrunda döyüşüb, yaralanıb, şəhid olub".

İ.Quliyev söhbətinə davam edərək bildirdi ki, Böyük Qələbənin qazanılmasında Müzəffər Ali Baş Komandanın müdrik, uzaqgörən siyasəti böyük rol oynadı, Vətən oğullarının qəhrəmanlığı, fədakarlığı sayəsində ordumuz qələbə qazandı.

İltizam Quliyev 2021-ci ilin fevralında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə rayon icra hakimiyyətlərində yaradılmış Vətən Müharibəsi İştirakçıları və Şəhid Ailələri ilə İşin Təşkili Şöbələri şəhid ailələrinin, müharibə əlillərinin sosial-məişət şəraitinə, məşğulluq imkanlarına, mənzil şəraitinin yaxşılaşdırılmasına böyük töhfələr verdiyini dedi: "O cümlədən şöbəmiz də yarandığı gündən rayonumuzda nəinki Vətən müharibəsi iştirakçıları, eyni zamanda, Böyük Vətən müharibəsi iştirakçıları, Birinci Qarabağ müharibəsi şəhidləri, müharibədə yaralanmış döyüşçülər, hərbi xidmət zamanı əlil olmuş şəxslər, Vətən müharibəsi, Çernobıl əlilləri, Əfqanıstan müharibəsi əlilləri və veteranların sosial qayğıları ilə yaxından tanış olaraq, onların həlli istiqamətində müvafiq addımlar atmışdır. Şəhidlərin adlarının əbədiləşdirilməsi istiqamətində böyük işlər görülüb. İmişli şəhəri ərazisində yerləşən Şəhidlər xiyabanı yenidən tam təmir olunaraq, rayon sakinlərinin ziyarətgahına çevrilib. Şəhidlərimizin adlarını daşıyan küçələr abadlaşdırılıb. İl ərzində hüzn günü və digər vaxtlarda Şəhidlər xiyabanı rayon ictimaiyyəti tərəfindən ziyarət olunur, şəhidlərin ruhuna dualar oxunur. İcra hakimiyyətinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidlərinin xatirəsinə rayonun Heydər Əliyev parkında elektron lövhə quraşdırılaraq, gün ərzində hər bir şəhid haqqında məlumat yayımlanır".

İltizam müəllimin söylədikləri bizə onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən şəhid ailələri və müharibə əlilləri yüksək diqqət və qayğı ilə əhatə olunublar. Bəli, xalqımız öz şəhid övladlarını heç zaman unutmayacaq, xatirələrini daim yad edəcək. Onların qürur tariximizə yazdığı yeni səhifələr hələ çox oxunacaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## ANAMA: Ötən ay 4839,3 hektar ərazi minadan və partlamamış hərbi sursatdan təmizlənib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatlarına dair aylıq məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, may ayında Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 251, tank əleyhinə 141 mina və 1068 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən ay ərzində 4839,3 hektar ərazi minadan və partlamamış hərbi sursatdan təmizlənib.

# Heydər Əliyev - böyük tarixi şəxsiyyət

Dünyanın tanınmış siyasətçiləri, dövlət başçıları böyük tarixi şəxsiyyət Heydər Əliyevin timsalında Azərbaycana ehtiramlarını ifadə ediblər. Bu ehtiram siyasi fəaliyyətin ifadəsi olsa da, xarakter haqqında həyati qənaətdir: "Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur" (**Rəcəb Tayyib Ərdoğan**), "Heydər Əliyev böyük dövlət xadimi idi: Mübaliğəsiz demək olar ki, siyasət nəhəngi idi" (**Vladimir Putin**), "Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır" (**Gerhard Şröder**).

Ömrünü xalq üçün, dövlət üçün, dövlətçilik üçün yaşayanlar tarixin axarını qüdrətli təfəkkürü ilə dəyişə bilirlər. Siyasi xadimlər də tarixi belə yaradırlar, hərbi xadimlər də. Xalqa görə üsyanlar da belə başlayıb, xalqın iradəsi ilə dövlətlər də belə qurulub.

Tarixi şəxsiyyət amili XX əsrdə də Azərbaycanın tarixində böyük, müstəsna əhəmiyyət kəsb etdi. Azərbaycanın müstəqilliyi 70-ci illərə kimi SSRİ-nin siyasi şərtləri ilə məhdudlaşdırılmışdı, ancaq azərbaycançılıq məfkurəsi yaşadılırdı.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev ən böyük azərbaycanlı kimi hakimiyyətdə olduğu hər iki dönəmdə ömrünü Azərbaycan üçün yaşadı. Əsgərlər də qürurla deyirlər ki, Heydər Əliyev ömrü əbədiyyət ömrüdü...

**Kapitan Vəli Allahverdiyev:**



- SSRİ dönəmində ən böyük tikililərdən biri də Baykal-Amur Magistralı idi. Bu, tarixə əsrin tikintisi kimi daxil olmuşdu. Bu tikintiyə rəhbərlik də, nəzarət də böyük tarixi şəxsiyyət Heydər Əliyevə tapşırılmışdı. O dövrdə BAM SSRİ-nin iqtisadiyyatında da, hərbi-strateji mövqeyində də olduqca əhəmiyyətli idi. Tarix təsdiqlədi ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev dühası qələbələri, uğurları həmişə təmin edib. SSRİ-də də, Azərbaycanda da...

**Əsgər Vüsal Əlili:**

- Atamdan da eşitmişəm, müəllimlərimizdən də. Həmin illərdə Azərbaycanda böyük quruculuq işləri başlayıb, neçə-neçə ittifaq əhəmiyyətli sənaye müəssisəsi istifadəyə verilib. Bakı Məişət Kondisionerləri zavodu, Ozon zavodu, Radiozavod və s. həm Azərbaycanı ittifaqda daha geniş miqyasda tanıdırdı, həm də böyük iqtisadi inkişafı təmin edirdi. SSRİ-nin müxtəlif şəhərlərindən Bakıya mütəxəssislər göndərilirdi, fəhlələr gəlirdi, onların hər biri Azərbaycanda gördüklərinin heyrətini tanıdıqlarına böyük sevgilərlə çatdırırdı. Bu müəssisələrin istehsal etdiyi məhsullar sabiq



SSRİ-nin respublikalarına da, dünyanın neçə-neçə dövlətinə də ixrac olunurdu. Atam deyirdi ki, o illərdə "Çinar" soyuducusuna həmişə böyük ehtiyac hiss edilib. Kənd təsərrüfatında da böyük uğurlar əldə olunurdu.

**Əsgər Xəyyam Əsgərov:**

- Ulu Öndər Heydər Əliyev sovetlər dönəmində də Azərbaycanın sabahlarını düşünürdü. O illərdə azərbaycanlıların da nizami hərbi hissələrdə xidmət etməsinə, SSRİ-nin müxtəlif ali hərbi məktəblərində təhsil almasına nail olmuşdu. Bunlar Azərbaycanın müstəqilliyinin bərpa ediləcəyinə inama görə idi. Dahi insan, ən böyük azərbaycanlı Azərbaycanda ibtidai hərbi məktəbin yaradılmasına da bu inamla nail oldu, 1971-ci ildə C.Naxçıvanski adına Hərbi Lisey fəaliyyətə başladı. Bu liseyin onlarla məzunu generaldır, Azərbaycanın Milli Qəhrəmanıdır, neçəsi Vətən Müharibəsi Qəhrəmanıdır. Müasir ordumuzun şəxsi heyəti həm də xüsusi təyinatlı bu təhsil müəssisəsinin məzunları hesabına komplektləşdirilir.

**Əsgər Məhəmməd Tağıyev:**

- Ulu Öndər Heydər Əliyev Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə böyük diqqət yetirirdi. Hüseyn Cavidin nəşinin Sibirdən, Tayşekdən gətirilməsi, Naxçıvanda dəfn olunması, böyük şair və yazıçıların abidələrinin ucaldılması, adlarının əbədiləşdirilməsi, yubileylərinin geniş miqyasda keçirilməsi Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə ehtiram idi, xidmət idi, bunlar gənc nəslin vətənpərvərlik tərbiyəsində əhəmiyyətli olurdu. O illərdə Nəriman Nərimanovun heykəli qoyulanda Moskvanın etirazını azərbaycançılıq qətiyyəti ilə dəf etmişdi - Moskva Bakıda S.M.Kirovun heykəlindən hündür heykəlin olmasını istəmirdi. Ulu Öndər Heydər Əliyev Nəriman Nərimanovun Azərbaycana xidmətləri müqabilində bu tarixi şəxsiyyətə öz sevgisini Moskvanın istəyindən üstün tutmuşdu.

**Əsgər Orxan Abdullayev:**

- Azərbaycan da digər respublikalar kimi, SSRİ-nin əyaləti idi. Xalqın azadlıq, müstəqillik istəyi böyük, dönməz bir hərəkata çevrilmişdi. Milyonların səsi dövlətçiliyimizin harayına dönmüşdü. Moskva bu hərəkatı boğmaq üçün Bakıya qoşun yeritdi, faciə törətdi. Lakin xalqın iradəsini sındıra bilmədi. Sovet imperiyası Bakıda qırğın törədəndə düşünürdü ki, bu qırğın milli-azadlıq hərəkatını dayandıracaq. Yanvarın 21-də böyük tarixi şəxsiyyət Heydər Əliyev Moskvada, Azərbaycanın daimi nümayəndəliyinə gələrək, faciəni bir xalqa qarşı törədilmiş soyqırımı adlandırdı, təşkilatçıların da, icraçıların da cəzalandırılmasını tələb etdi. Bu çıxış 20 Yanvar faciəsinə verilən ilk siyasi qiymət idi.

**Əsgər Elşən Abbaslı:**

- Müstəqillik haqqında Konstitusiya Aktı qəbul olundu - Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. 1920-ci il aprelin 28-dən bəri xalqın ruhunu sıxan ilhaq sona çatdı.

**Əsgər Məhəmməd Tağıyev:**

- Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Lakin hakimiyyət boşluğu, səriştəsizlik, orduda vahid komandanlığın olmaması, ərazilərin münasibətlər əsasında müdafiə olunması və s. Azərbaycanda dövlət çevrilişinə zəmin yaratmışdı, Azərbaycan vətəndaş müharibəsi ərəfəsində idi. Gəncədə qiyam başlamışdı. Belə bir vaxtda xalq təkidlə Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışı respublikada vətəndaş qarşıdurmasının - qardaş qırğınının qarşısının alınmasını da təmin etdi. Azərbaycanın dövlət müstəqilliyi iflasdan xilas oldu. Ulu Öndərin qayıdışı ilə Azərbaycanda siyasi sabitlik yarandı, iqtisadi inkişaf üçün etibarlı zəmin hazırlandı, ordu quruculuğunun yeni mərhələsi başladı. Yerli müdafiə batalyonları buraxıldı, ordu nizami ordu kimi formalaşmağa başladı.

**Əsgər Orxan Abdullayev:**

- Azərbaycan Demokratik Respublikasının dövlət bayrağı olmuş üçrəngli bayrağımız ilk dəfə Naxçıvanda yenidən dalğalandı. Xalqın böyük əksəriyyətinin səsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər Heydər Əliyev qısa müddətdə Azərbaycanın neçə-neçə beynəlxalq təşkilatda təmsil olunmasını təmin etdi, dövlət bayrağımız BMT-də dalğalandırıldı. Əbədiyyən dalğalanacaq da, ərazi bütövlüyümüzün carçısı kimi dalğalanacaq!..

**Əsgər Kərim Kərimov:**

- Çox qədim tarixə malik olan xalqımız həm də çox qədim ədəbiyyata malikdir. Bakıda "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyinə həsr olunmuş beynəlxalq tədbir də bu qədimliyə ehtirama görə keçirilmişdi. Belə bir möhtəşəm tədbir də böyük tarixi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə keçirilmişdi, dünyanın diqqətini cəlb edərək tarixləşdirilmişdi.

**Kapitan Vəli Allahverdiyev:**

- Xalqın qədimliyi nəinki onun folkloru ilə, həm də yazılı ədəbiyyatının, incəsənətinin qədimliyi ilə müəyyənləşdirilir. Qobustan qayaüstü rəsmləri də, "Kitabi-Dədə Qorqud" dastanları da təsdiqləyir ki, bəşəriliyin ilk meridianları məhz Azərbaycandan keçib.

**Əsgər Vüsal Əlili:**

- Mən qəbul imtahanlarına hazırlaşanda "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinə həsr olunmuş tədbirdəki çıxışların əksəriyyətini oxumuşdum. Onda mən də qürurlanmışdım ki, xalqımız belə bir qədim yazılı ədəbiyyata malikdir.

**Kapitan Vəli Allahverdiyev:**

- Ulu Öndər Azərbaycan dövlətçiliyini xilas etdi, onun daha ciddi qorunması üçün ordu quruculuğunda ilk islahatlara başladı. Yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq yaradıldı, ordunun maddi-texniki bazası mərhələlərlə möhkəmləndirilməyə başladı. Ordu quruculuğu dövlət üçün başlıca qayğılar sırasında oldu.

**Əsgər Xəyyam Əsgərov:**

- Ən böyük azərbaycanlı olan Ulu Öndər böyük qürurla deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Bu qürur azərbaycançılıq ideologiyasının məfkurə kimi formalaşdırılmasına vasitə oldu - 2001-ci ilin 31 dekabrında böyük tarixi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə Dünya azərbaycanlılarının I qurultayı keçirildi. Bu qurultay həmrəyliyin rəsmi başlanğıcı kimi tarixləşdi və sonralar uğurla davam etdirildi.

**Əsgər Elşən Abbaslı:**

- 1994-cü il yanvarın 5-də Əbədiyaşar Komandan Heydər Əliyevin sərkərdəliyi ilə ordumuz Horadiz əməliyyatına başladı. Qısamüddətli döyüşlərdən sonra Füzuli rayonunun 20 kəndi, Horadiz qəsəbəsi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Bu qələbə ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını, döyüş əzmini, qələbə ruhunu yüksəltdi. Mahiyyəti baxımından ehtimal edilən sonrakı əməliyyatların da qələbə ilə nəticələnəcəyinin inamı oldu...

Ön xətdə, səngərlərdə hərbi qulluqçularla görüşən Ulu Öndər xidmətdə fərqlənənləri mükafatlandırırdı, onlara müdrik məsləhətlər verirdi. Bu görüşlər şəxsi heyətin mənəvi-psixoloji hazırlığında müstəsna rol oynamışdı...

**Əsgər Məhəmməd Tağıyev:**

- Azərbaycanın beynəlxalq nüfuzu da artırdı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin güclü diplomatiyası, siyasi təfəkkürü Azərbaycanı dünyəvi siyasətin öncülləri sırasına çıxartdı. Neçə-neçə irimiqyaslı beynəlxalq müqavilə imzalandı, "Əsrin müqaviləsi", "İpək yolu" kimi çoxtərəfli razılaşmalar iştirakçı dövlətlərə kifayət qədər iqtisadi səmərə verməyə başladı.



Böyük tarixi şəxsiyyət Heydər Əliyev ən böyük azərbaycanlı idi. Onun formalaşdırdığı, məfkurə səviyyəsinə yüksəltdiyi azərbaycançılıq hər bir azərbaycanlının milli mənsubiyyət ideologiyasıdır; Heydər Əliyev böyük tarixi şəxsiyyət idi, əbədiyyət ömrü ilə bəşəri niyyətləri indi də nurlandırmaqdadır...

**Mayor
Ceyhun CƏFƏRLİ
"Azərbaycan Ordusu"**

Medallı igidlərimiz

# Doğru yol

*Digər hərbi hissələr kimi, "N" hərbi hissəsinin də şəxsi heyəti torpaqlarımızın işğaldan azad olunmasında və müdafiəsində qarşıya qoyulan döyüş tapşırıqlarını böyük fədakarlıqla yerinə yetirib. Düşmən təxribatlarının qarşısının alınmasında həmişə şəxsi heyət qətiyyətli mövqe nümayiş etdirir. Müharibədən bir neçə il keçsə də, hərbi qulluqçular döyüş hazırlığını həmişə yüksək səviyyədə saxlayırlar. Hər biri öhdəsinə düşən vəzifələri yüksək məsuliyyət və vətənpərvərliklə yerinə yetirir.*

Hərbi hissədə hərbi peşəyə yeniyetməlik çağlarından böyük diqqət və maraq göstərən mayor Orxan Babayevin də göstərilən etimadı doğruldan nümunəvi zabitlərdən olduğunu xüsusi vurğuladılar.

Orxan Rövşən oğlu Babayev orta məktəbdə təhsil aldığı illərdə ölkəmizdə torpaqlarımızın işğal altında olması, işğalçıların ərazilərimizdə törətdikləri, insanlığa sığmayan cinayətləri, mülki vətəndaşlarımızın həlak olması hər kəs kimi, onun da ruhunu silkələyib. O, Vətənin müda-



fiəsində əzmlə dayanan hərbçilərə həmişə böyük rəğbət bəsləyib və bu rəğbət peşə seçimində ona yardımçı olub.

Vətənsevər zabit 1991-ci ildə Siyəzən rayonunda anadan olub. Zarat kənd orta məktəbinin 8-ci sinfini bitirdikdən sonra sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim edib. İmtahanlardan müvəffəqiyyətlə keçərək kursant adını qazanıb. Sonra təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) motoatıcı ixtisası üzrə davam etdirib, təkmilləşdirmə kursunu müvəffəqiyyətlə başa vuraraq, "N" hərbi hissəsində taqım komandiri vəzifəsinə təyin olunub. Taqım komandiri kimi öhdəsinə düşən vəzifələri inamla yerinə yetirib. Tabeliyindəki şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə çalışıb.

2016-cı ilin Aprel döyüşləri onlar üçün əsl sınaq olub. Aprel döyüşlərində silahdaşları ilə birlikdə Ermənistan ordusu haqqında yaranmış miflərin dağılmasında fəallıq göstəriblər. Tərtər, Cəbrayıl, Goranboy istiqamətlərində düşmənin xeyli canlı qüvvəsi, texnikası, silah-sursatı və sədləri məhv edilib.

Mayor Orxan Babayev Aprel döyüşləri haqqında dedi: "Bu döyüş qələbə əzmimizi, döyüş ruhumuzu daha da yüksəltdi və gələcək qələbələrə olan inamımızı daha da artırdı. Torpaqlarımızın erməni işğalçılarından tamamilə azad edilməsinə zəmin yaratdı".

Aprel zəfərindən sonra Orxan Babayev "N" hərbi hissəsində bölük komandiri vəzifəsinə təyin olunub. Cəsur oğullarla birgə Vətən torpaqlarının müdafiəsində dayanıb. Döyüş növbətçiliyi yüksək səviyyədə təşkil olunub. Tabeçiliyindəki şəxsi heyətin xidmətləri komandanlıq tərəfindən yüksək qiymətləndirilib.

27 sentyabr 2020-ci ildə Ermənistan silahlı birləşmələri yeni ərazilər işğal etmək məqsədilə hücuma keçdi və genişmiqyaslı təxribatlara başladı. Buna cavab olaraq, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ölkəmizin müdafiəsi və torpaqlarımızın işğalçılardan azad edilməsi məqsədilə əks-hücum əmri verildi.

Beləliklə, Azərbaycan Ordusu düşmənə qarşı döyüş əməliyyatlarına başladı. Orxan Babayevin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də Füzuli bölgəsində döyüşlərə cəlb edildi. Kənd və qəsəbələr düşməndən təmizlənirdi. Alxanlı, Seyidəhmədli və digər ərazilərimiz azad olundu. Döyüşlərin qızğın vaxtı Orxan qəlpə yarası alsa da, qısa müddət müalicə aldıqdan sonra yenidən döyüşlərə qayıtdı və Xocavəndin, Şuşanın azad olunmasında iştirak etdi. Şəxsi igidlik və rəşadət göstərdi. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olundu.

Mayor Orxan Babayev "N" hərbi hissəsində xidmətini davam etdirir. Torpaqlarımızın işğalçılardan azad edilməsində, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasında iştirakından qürur duyduğunu deyir. Azərbaycan zabiti adını şərəflə daşıyan Orxan seçdiyi peşənin xalqa, Vətənə, torpağa nə qədər gərəkli peşə olduğunu bu gün də sübut edir.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# "Əsgərin son məktubu"

2020-ci il noyabrın 8-dən uzaqlaşdıqca mənən o günün ruhuna, ovqatına daha da yaxınlaşırıq - xalqın ruhu yaxınlaşdırır, Azərbaycana, Azərbaycan Ordusuna sədaqət yaxınlaşdırır, bəşərilik yaxınlaşdırır, bir də sənət əsərləri - şeirlər, hekayələr, romanlar, çəkilən filmlər, tablolar yaxınlaşdırır...

Vətən müharibəsindən əvvəl əsgərə gələn məktublar ümid məktublarıydı (Vətəni qoruyursan), əsgərdən gələn məktublar - inam (Vətəni qoruyuruq). Vətən müharibəsindən əvvəl yazılan əsgər məktublarında döyüş əzmi də olurdu, qələbə ruhu da. Xalqın istəyi olan bu əzm, bu ruh həm də əsgər ürəyində yaşadılırdı...

Vətən müharibəsindən əvvəl əsgər hərbi xidmətdən yazırdı, yoldaşlarından, dostluqdan, dostlarından yazırdı, hamısının torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüş əmri gözlədiyini yazırdı. Yazırdıq ki, "Səngərləri sərhədlərə köçürün!". Yazırdılar ki, bu niyyətin əsgəriyik. Yazırdıq ki, "Əsgər ürəyindən başlanır Vətən!". Yazırdılar ki, hər əsgər ürəyi bir səngərdi. Əsgərə gedən məktublar da, əsgərdən gələn məktublar da niyyətli məktublarıydı. Bu niyyətlər də Vətənə ad olan niyyətləriydi, bu niyyətlər Vətənin işğaldan qurtuluşuydu.

Hər əsgər məktubunda Ali Baş Komandanın döyüş əmrinin intizarı olurdu. Kimisi sezilirdi, kimisi yox. Kimisində narahatlıq da duyulurdu: "Kaş döyüş əmri mən tərxis edilənə kimi veriləydi..."...

İkinci Qarabağ müharibəsindən əvvəl ön xətdə əsgərlərlə söhbətləşəndə əsgərlərdən biri demişdi ki, darıxmağa vaxtımız olmur: təlimlər, döyüş növbətçiliyi, döyüş hazırlığı. Başqa bir əsgər onun sözünü hamımıza könül xoşluğu verən bir fikirlə tamamlamışdı: Vaxtımız olanda Ali Baş Komandanın verəcəyi döyüş əmrindən danışırıq. "Əzizlərinizə yazdığınız məktublarda bu fikirlər də olurmu?", - soruşmamışdım. Soruşsaydım, "Bəli", - deyərdilər...

Mayor Ruslan Novruzov demişdi ki, əsgərlər hərbi xidmətdən tərxis ediləndə kövrək anlar da yaşanılır. Bunu xidmətini davam etdirən əsgərlər də, zabitlər də hərbi xidmətə sədaqətin kövrəkliyi bilirlər...

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladı. Azərbaycançılığın ermənilíyə, vətənsevərliyin işğala qarşı döyüşləri xalqın müharibəsi idi...

Vətən müharibəsində söz də əsgərləşmişdi. Şeirlər, poemalar, hekayələr, romanlar yazıldı. Yazılacaq da...

Neçə-neçə rəsm əsəri çəkildi, filmlər çəkildi, çəkiləcək də. Hamısında Azərbaycan əsgərinin qələbə ruhu aydınlığıyla görünür. Zəfərdən sonra çəkilənlər Azərbaycan əsgərinin obrazını - qəhrəmanlığını, şücaətini, qüdrətini ifadə edir. Əsgər hərbi xidmətə gedir. Hərbi xidmətdən əzizlərinə məktublar yazır, əzizlərindən məktublar alır. Zəfərdən sonra əsgərə gələn məktubların da, əsgər məktublarının da məzmunu dəyişib...

Vətən müharibəsi başlayandan sonra əsgərə gedən məktublar artmışdı, əsgərdən gələn məktubların arası seyrəlmişdi - əsgərin silahı tarix yazırdı, əsgərin məktub yazmağa vaxtı olmurdu. Əsgər macal tapanda yazırdı, mətləbini qısaca ifadə etməyə çalışırdı...

Rəssam Nazim Şah Vətən müharibəsinin bir anına rənglərin qüdrətiylə yaşam verib. Əsgər döyüşdən çıxıb, mövqe qələbəsi qazanılıb. Düşmən mövqelərini tərk edib qaçır. Azərbaycan əsgəri döyüşə-döyüşə Qələbəyə yaxınlaşır. Bu sevinc döyüşdən uzaqlarda da yaşanılır.

Günəş qürub meyillənib. Üzücü sakitlikdi. Əsgər məktub yazır. Qəflətən yaxınlığına mərmi düşür. Düşmən əks-hücuma keçib. Əsgər dikələ bilmir. Yazdığı cümlənin nöqtəsi öz qanı olur, fikrini bitirə bilmir. Məktub boyunca qırmızı nöqtələr düzülür...

Son məktubu yazan əsgərin döyüş yolunu davam etdirən əsgərlər qüdrət əsgəri olduqlarını antiterror tədbirlərində də təsdiqlədilər...

"Əsgərin son məktubu" şəhidlərimizin ruhuna ehtiram kimi çəkilib. Nazim Şahın bu əsəri döyüş tarixidi - Vətən müharibəsinin tarixidi, Azərbaycan əsgərinin mənəvi dünyasının işığıdı...

Tarixi Zəfər də yaşadılacaq, "Gözlə məni" deyib hərbi xidmətə gedənlər də yaşadacaq, hərbi xidmətini müharibədən - Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə xidmət edənlər də...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə təlim təyyarəsi qəzaya uğrayıb, iki pilot həlak olub



Türkiyənin Kayseri vilayətində ölkənin Hərbi Hava Qüvvələri Komandanlığına məxsus SF-260D tipli təyyarə qəzaya uğrayıb. Hadisə nəticəsində təyyarənin iki pilotu həlak olub.

Hadisə ilə bağlı Türkiyənin Milli Müdafiə Nazirliyi açıqlama verib.

Məlumata əsasən, Türkiyənin 12-ci Hava Nəqliyyatı Baş Baza Komandanlığından təlim uçuşu üçün havaya qalxan təyyarə naməlum səbəbdən qəzaya uğrayıb.

Qəzanın səbəbləri araşdırılır.

## Zelenski ABŞ müdafiə naziri ilə görüşüb




Ukrayna Prezidenti Volodimir Zelenski Sinqapurda keçirilən "Şanqri-La Dialoq" beynəlxalq təhlükəsizlik forumu çərçivəsində ABŞ-ın müdafiə naziri Lloyd Ostin ilə görüşüb.

Bu barədə Zelenski teleqram kanalında yazıb.

"ABŞ-ın müdafiə naziri Lloyd Ostin ilə görüşdə əsas müzakirə mövzusu Ukraynanın müdafiə ehtiyacları, hava hücumundan müdafiə sisteminin gücləndirilməsi, F-16 təyyarələrin tədarükü, ikitərəfli təhlükəsizlik sazişinin hazırlanması olub", - deyə dövlət başçısı bildirib.

O, danışıqların təfərrüatlarını açıqlamayıb.

Zelenski, həmçinin ABŞ Prezidenti Co Baydenə Rusiya ərazisinə Amerika silahları ilə müdafiə zərbələri endirmək qərarına görə təşəkkür edib. Mayın 30-da Pentaqon təsdiq edib ki, ABŞ administrasiyası əks batareya döyüşü zamanı Rusiya ərazisinə Amerika silahları ilə zərbələr endirməyə razılaşıb.

## Yaponiyada F-35 qırıcıları qəza enişi edib



Yaponiya özünümüdafiə qüvvələrinə məxsus 2 ədəd beşinci nəsil F-35 qırıcısı Aomori prefekturasının aeroportuna qəza enişi edib.

Bu barədə Kyodo agentliyi məlumat yayıb.

Agentlik bildirir ki, qəza enişinə səbəb təyyarələrin elektronikasında yaranmış nasazlıqdır. Hadisə nəticəsində xəsarət alan yoxdur. Fakt araşdırılır.

## Pakistanın şimal-qərbində 2 terrorçu öldürülüb



Pakistanın təhlükəsizlik qüvvələri cümə axşamı gecə saatlarında ölkənin şimal-qərbindəki Pişəvər rayonunda keçirilən əməliyyatda iki terrorçunu öldürüb, daha ikisini isə yaralayıb.

"Sinxua" agentliyi xəbər verir ki, bu barədə Pakistan Ordusunun ictimaiyyətlə əlaqələr bölməsindən bildirilir.

Açıqlamada qeyd olunub ki, öldürülən və yaralanan yaraqlılar təhlükəsizlik qüvvələrinə qarşı çoxsaylı terror fəaliyyətlərində və günahsız mülki şəxslərin qətlində iştirak ediblər.

Əməliyyat nəticəsində zərərsizləşdirilən terrorçulardan xeyli silah-sursat götürülüb.

**AZƏRTAC-ın materialları əsasında**

# 26 İyun - Silahlı Qüvvələr Gününə həsr olunmuş şahmat və dama turnirləri keçirildi





26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı, Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin rəhbərliyinin dəstəyi ilə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində şahmat və dama turnirləri keçirildi.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətən torpaqlarının azadlığı, müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni ifa olundu.

Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərim Rzayev hər kəsi salamlayaraq, keçirilən turnir və qaydalar haqqında məlumat verdi. İştirakçılara uğurlar arzulayan sədr dedi ki, bu cür mədəni-kütləvi idman tədbirlərinin keçirilməsində əsas məqsəd kollektivlər arasında işgüzar mühitin yaxşılaşdırılması, yüksək səviyyədə qorunub saxlanılmasıdır. "Müdafiə Nazirliyinin hərbi hissələrində, idarə və müəssisələrində çalışan Həmkarlar İttifaqı Komitəsi üzvlərinin arasında keçirilən turnirlərin qalibləri mükafatlandırıldılar. Bu səbəbdən bir daha hər birinizə gərgin mübarizə şəraitində keçirilən turnirlərdə uğurlar arzu edirəm. Güclü olan qalib gəlsin".

K.Rzayev, eləcə də bu tədbirlərin ərsəyə gəlməsində köməklik göstərən Müdafiə Nazirliyinin rəhbərliyinə komitə adından minnətdarlığını vurğuladı.

Sağlam və gərgin rəqabətlə davam edən oyunlardan sonra hakimlər kollegiyası tərəfindən qaliblər müəyyənləşdirildi. Şahmat turniri üzrə Hacıyev Mirzeynal İbrahim oğlu - 1-ci, Abdulla Rövşən Əlizahid oğlu - 2-ci, Kəlbiyev Elbrus Akif oğlu - 3-cü, dama turniri üzrə Aslanov Azər Oruc oğlu - 1-ci, Nuriyev Natiq Məşədi oğlu - 2-ci, Seyidov Vidadi Qardaşxan oğlu - 3-cü yerlərə layiq görüldülər.

Qalib və iştirakçıların mükafatlandırılması zamanı Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Aygün Məmmədova oyun iştirakçılarına minnətdarlıq edərək, turnirin bitməsi ilə əlaqədar hər kəsi təbrik etdi. "Qarşıdan gələn Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 106-cı ildönümü münasibətilə hər kəsi səmimi-qəlbdən təbrik edir, sizə möhkəm cansağlığı, uzun ömür və işlərinizdə uğurlar arzulayıram. Bütün dünyaya gücünü göstərən Azərbaycan Ordusunun bu il 106 yaşı tamam olur. Ordumuz dünyanın güclü orduları sırasındadır. Bizə Böyük Qələbənin sevincini yaşatdıqları, hər an Vətən, torpaq müdafiəsində mətin dayandıqları üçün məğrur hərbi qulluqçularımızla fəxr edir, ordumuzla qürur duyuruq".



Çıxışlardan sonra qaliblər və iştirakçılar mükafatlandırıldılar. Tədbirin sonunda xatirə şəkli çəkdirildi.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# “Vətənimizi sevərək qoruyuruq”

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə başlayan və hərb tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu düşmənə göz dağı verərək, xalqımıza illərdir həsrətində olduğu qələbə müjdəsini verdi. Əlbəttə, bu müjdənin sevincini bizə yaşadan məhz qəhrəman oğullarımız oldu. Onlar torpaqlarımızı mənfur düşməndən azad edib, işğalçılığa son qoydular. Bu gün isə ordu sıralarında xidmət edən gənc əsgərlərimiz qəhrəmanlarımızın döyüş yolunu özlərinə örnək bilərək, xidmətlərini ona uyğun tənzimləyirlər. Belə oğullardan biri də Göyçay rayonunun Cəyirlik kəndində dünyaya göz açan əsgər Əkbər Əhmədovdur. Əkbər Cəyirlik kənd tam orta məktəbini bitirərək, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinə qəbul olub. Məzun olduqdan sonra Vətən torpaqlarının müdafiəsində dayanmaq üçün müddətli həqiqi hərbi xidmətə yollanıb. Qısa bir zaman ərzində xidməti ilə komandir heyətinin rəğbətini, mərdliyi, cəsarəti və dürüstlüyü ilə silahdaşlarının hörmətini qazanıb. "N" hərbi hissəsində Əkbərlə tanışlığımız onun doğum gününə təsadüf etdi. Əkbəri komandir və əsgər yoldaşları təbrik etdikdən sonra biz də yaranan fürsətdən istifadə edib, igid əsgərimizə ilk öncə cansağlığı, möhkəm iradə və gələcək xidmətlərində uğurlar arzuladıq.



- Növbəti yaşımı regionun ən güclüsü olan rəşadətli Azərbaycan Ordusunun sıralarında keçirdiyim üçün qürurluyam. Çünki bu hissi hər adam yaşaya bilməz. Qayğıkeş və peşəkar komandirlərimin, səmimi əsgər yoldaşlarımın arasında doğum gününün sevincini yaşamaq ayrı bir duyğudur. Bu gün münasibətilə hər biri məni təbrik etdi, hətta hədiyyə də verdilər. Bunun üçün başda komandirlərim olmaqla, onlara minnətdarığımı bildirirəm, - deyə əsgər söhbətinə davam etdi.

- Hər bir Azərbaycan vətəndaşının müqəddəs borcu Vətəni sevmək və onu sevərək qorumaqdır. Bu gün mən də Vətənimizə olan övladlıq borcumu ödəməyə gəlmişəm. Bunun üçün əlimdən gələni etməyə hazıram. Çünki bu torpaqlar bizə əcdadlarımızdan və şəhidlərimizdən qalan əmanətdir. Əmanətə sahib çıxmaq isə ən başlıca amalımızdır.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanın kapoeyra millisi Avropa çempionatında birinci yeri tutub




Azərbaycanın kapoeyra millisi Macarıstanın paytaxtı Budapeştdə keçirilmiş Avropa çempionatını uğurla başa vurub.

Yığma üzvləri 6 qızıl, 2 gümüş, 3 bürünc olmaqla ümumilikdə 11 medal qazanıblar.

Fikrət Dadaşov, Cəfər Usubov, Dilqəm İsmayılov, Fərid Allahverdiyev, Mehriban Hacıbabayeva və Fərid Səlimov fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Gülçöhrə Abbasova, Asya Atayeva ikinci, Səid Şahyarov, Əli Tağızadə və Xədicə Zeynallı üçüncü sırada yer alıblar.

Bu nəticədən sonra milli komanda yarışda medal əyarına görə ümumi hesabda birinci yerə layiq görülüb.

## Azərbaycanın daha bir boksçusu Olimpiadaya vəsiqə qazanıb




Azərbaycan boksçusu Alfonso Dominqes "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

92 kiloqram çəkidə mübarizə aparan idmançı bunu Tailandın paytaxtı Banqkokda II Dünya Olimpiya Təsnifat Turnirində rəsmiləşdirib.

İdmançımız 14 finalda Elkin Adilbek Uulu (Qırğızıstan) ilə qarşılaşıb. Dominqes rəqibini 5:0 hesabı ilə məğlub edərək, yarımfinala yüksəlib və bu qələbə boksçuya "Paris-2024"ə iştirak hüququ verib.

Bununla da Azərbaycan Fransa paytaxtında 5 kişi boksçu ilə təmsil olunacaq. A.Dominqesdən öncə Nicat Hüseynov (51 kq), Malik Həsənov (63,5 kq), Murad Allahverdiyev (80 kq) və Məhəmməd Abdullayev (+92 kq) Paris Olimpiadasına vəsiqəyə yiyələnib.

Qeyd edək ki, Olimpiadada boks yarışları iyulun 27-dən avqustun 10-dək davam edəcək.

## Avropa çempionatında Azərbaycanı təmsil edəcək atletlər müəyyənləşib

İtaliyanın paytaxtı Romada keçiriləcək Avropa çempionatına Azərbaycanı təmsil edəcək atletlər müəyyənləşib.

Müxtəlif yarışlarda əldə etdikləri nəticələr əsasında yığmanın 4 üzvü mötəbər turnirdə iştirak hüququ qazanıb. Çəkic atma növündə Anna Skidan, uzunluğa tullanmada Nazim Babayev, üç təkanla tullanmada Yekaterina Sarıyeva və Aleksis Kopello medallar uğrunda mübarizə aparacaqlar.

Qeyd edək ki, Avropa çempionatı iyunun 7-12-də təşkil olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

---

Kapitan Səlimov Elnur Rasin oğluna məxsus MN № 0047511 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Leytenant Həmidov Səmid Tağı oğluna məxsus MN № 0066627 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Nadirli Şəmsi Şəmsəddin oğluna məxsus AD № 0054525 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu matros Həsənli Cavid Cabbar oğluna məxsus AD № 0034152 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 290
Nüsxə 4650